Təhsil Tələbə Krediti Fondu təhsilin əhatə dairəsini genişləndirmək, əlçatanlığını təmin etmək və təhsil almaqda bərabər imkanlar yaratmaq məqsədilə Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılıb.

Təhsil tələbə kreditləri respublikamızın ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin (dövlət, özəl, xüsusi təyinatlı və xarici təhsil müəssisələrinin Bakı filiallarında) ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyələrində, orta ixtisas təhsili pilləsində və peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyələrində əyani təhsil alan və yeni qəbul olmuş tələbələr üçün nəzərdə tutulub.

Təhsil tələbə kreditləri illik 2 faiz dərəcəsi ilə verilən sosial TTK və illik 6 faiz dərəcəsi ilə verilən standart TTK olmaqla iki növə ayrılır. Kreditin qaytarılma müddəti 10 ildir. TTK-dan yararlanmaq istəyən tələbələrdən zaminlik və girov tələb olunmur, təhsil müddətində TTK-ya heç bir faiz hesablanmır və kreditin geri qaytarılması da tələb edilmir.

Təhsil tələbə kreditlərinin verilməsinə başlanıldığı 25 noyabr 2021-ci il tarixindən 2 may 2023-cü il tarixinədək fonda 25 000-ə yaxın tələbə müraciəti daxil olub.

2022-2023-cü tədris ilinin payız semestri üzrə 8 000-ə yaxın tələbə müraciət edib, onlardan 6 002 nəfərin müraciəti rəsmiləşdirilib. Həmin müraciətlər üzrə 2 296 nəfər sosial TTK, 3 706 nəfər isə standart TTK-dan yararlanıb.